# Sənsizliyin 40-cı gününə Elegiya

**Vədələşdiyimiz vaxtdan xeyli keçmişdi. Gecikirdi, Maestro. Heç belə vədinə xilaf çıxmamışdı indiyəcən. Hər zaman günün, saatın sürətindən gileylənsə də, həmişə dəqiqliyi ilə bizə nümunə olurdu, kimisə bu gün bizi gözlədiyi qədər gözlətdiyinə inanmırdıq. Narahat olub zəng vurdum.**

**"Hardasan",** - deyə soruşdum.(Uzun illər bir yerdə işlədiyimizdən, aramızda səmimi zarafatlar, söz atışmaları olurdu və ən çox da ona "siz" deyəndə hirslənirdi: yığışdır bu sözün rəsmiyyət örtüyünü...Hələ nə yaşım var, mənimlə rəsmi danışanda özümü yüz ilin qocası sayıram, biləsən! Nəyayət ki, alışdırdı ona "sən" deyək, Ramiz müəllim deyək, dost deyək!)

**"Gəlirəm!"** - dedi. Bir az gecikəcəm, yamanca **"Sevdalandım yaz gəlincə"**, indi **"Sevgi qatarı"**nı gözləyirəm... Elə həyəcanlıyam ki, elə bil **"İlk görüşə" "Tələsirəm"... "Qızlar bulağı"**nda **"Günəşi gözləyirik"** - söyləyən gözəllərdən **"Səadət"**i xəbər alıram, **"Bir xumar baxışlı"** nazlana-nazlana **"Səni sevən baxışlar"**ı niyə intizarda qoyursan? - deyir ,- **"Həyatım gəl"** başını qoy dizimə, sənin yorğun ruhuna **"Səhər, günorta, axşam"** elə bir **"Layla"** oxuyum ki, yorğunluğunu, əsəbini, dərd-sərini unudub deyəsən **"Yaşamaq gözəldir"...** Onda biləcəksən ki, sevdiyin **"Xəyala döndü"**, elə **"Sənin vüqarın mənəm"** - söyləyir!

Mən də ona cavab olaraq: **"Dedim tələsmə"**, **"Ay qəlbi kövrək"**, **"Bu nə nazdı"**, nə ədadı belə? **"Bəri bax"**, **"Ay qız"**, deyəsən **"Xəbərin yoxdur"** axı, mən **"Sahilsiz gecə"**də **"Bir könül sındırmışam"**... **"Azərbaycan bağları"**nın bir **"Bahar çiçəyi"**nə **"Könül vermişəm"**. **"Bu sevdamın yolu uzun"du,** gərək "Arazım"ı adlayıb **"Doğma diyarım"**ın o mələk üzlüsünü tapıb ona deyəm ki, **"Gülüm, sən nə yaman gözəlləşmisən"**. Elə gözəlləşmisən ki, hətta **"Mirvari dalğalar"** da **"Səndən danışdı"!** Bir də **"Yox deyə-deyə"** məndən üz çevirən o **"Nəğməkar qız"**dan xəbər alım ki, **"Axı mən neyləmişəm"** ki, məndən incimisən? Vallah, sən **"Mənim ömrümün baharısan"**, əgər **"Sən olmasaydın"**, mən bu qədər böyük şövqlə **"Doğma diyarım"**ı vəsf edə bilməzdim. Hələ də **"Subaylıq sultanlıqdır"** - deyənlər var. Bax, görürsənmi, **"Gəldi xoş bahar"**çağı, yurdumun laciverd gözəlliyinə elə heyran kəsilmişəm ki... Qoy bir az **"Vətənimsən"** deyib qoynuna sığındığım **"Bu diyarın gözəlləri"**ni vəsf eləyim, nəğmə qoşum **"Bizim dağlara"**, insanlara səslənim, **"Sevənlərə gül verin!"** - deyim. Amma inan ki, səndən başqa bir kimsədə gözüm yox! Təkcə **"Sənsən ürəyim"**, təkcə sənə bağlıdır **"Mənim ömrüm"**, **"Ay qəlbi kövrək"**, bu dünyanı gəzib dolaşıb **"Səni tapdım"** - bu da **"Mənə bəsdir"!**



Sonra dedim ki, **"O gözələ"**, o alagözlü **"Güləndam"a, "Yeddi qızın biri gözəl"** deyirlər, ancaq mən bu fikirlə razılaşmıram. Həmişə, hər yerdə qürurla **"Azərbaycan - dünyam mənim"** dediyim **"Bu diyarın"** bütün qızları gözəldir. Amma, **"Bir az gözlə"** , **"Vətənə borcum var"**, onu verəndən sonra **"Toy olacaq"!** Mütləq olacaq! Bu gün **"Vətən harayı"**na səs vermək vaxtıdır. Bu vətənin igid oğulları **"Əsgər andı"** içib, **"Sərhəd marşı"**nın sədaları altında **"Vətənim"**izi mənfur düşməndən xilas edəndən sonra **"Naxçıvan təranələri"**, nin sədaları daha böyük təntənə ilə səslənəcək, biz qol-qola, çiyin-çiyinə, nəfəs-nəfəsə **"Yallı"** gedəcəyik! Yenə **"Bayram axşamları"**nın səməni nuruna boyanacaq **"Yurdum mənim"!**

**"Gələcəyəm"** - dedi, **"Gözlə məni"** - dedi, amma gəlmədi sevimli Maestromuz! Nə vaxtsa, hansı ovqatasa köklənib **"Əlvida"** - demişdi. Doğulub boya-başa çatdığı Naxçıvanın gözəlliyini, **"Abşeron"**un sərt iqlimini vəsf edib **"Mavi Xəzər"**in zərif pıçıltısını tamamlamaq niyyəti ilə **"Oxu, tar!"** deyən anda bu **"Əlvida"** niyə gəlmişdi ağlına... bunu daha heç kəs bilməyəcək.

Gözləyin, **"Gələcəyəm"**- demişdin!

Amma düz, 40 gündür gözümüz yolda, qulağımız səsdə qalıb! Səni sevən milyonlarla dinləyicinə, tamaşaçına, səni çox sevən dostlarına, doğmalarına verdiyin vədə ilk dəfə xilaf çıxdın! Niyə, MAESTRO? Sən ki, **"Bu dünya"**nı çox sevirdin, **"Dünya gözəl dünyadı"** deyirdin! Yəqin sən yox, elə Dünya etibarsız dünyaymış! Nəfəsi nəğmələrdə yaşayan, Ustad! Mən sizin, bağışlayın, Sənin 500-ə yaxın mahnından, simfonik əsərlərindən cəmi bir neçəsinin adını çəkdim. Bu nəğmələrin ömrü Səni tanıyıb-sevən Xalqının yaddaşı qədər əbədi və uzunömürlü olacaq!

**Telli Pənahqızı**